Şəfafflıq Azərbaycan

# PRESS RELİZ

Bu gün Azərbaycanda korrupsiyanın ən çox yayıldığı sahələrdən biri də hökümət qurumlarıdır. Bunun səbəblərini isə aşağıdakı şəkildə sıralaya bilərik:

1. Vəzifələrin rüşvətlə təyin edilməsi
2. Hökümət qurumlarında əmək haqlarının aşağı olması
3. Məhkəmə orqanlarının icraedici qurumlardan asılılığı
4. Qanunların qeyri-mükəmməlliyi
5. İctimai nəzarətin olmaması
6. Sovet sisteminin irsi qalıqları
7. Cəmiyyətin mənəvi pozğunluğu

Bu səbəblər arasında ən əvvəldə dayanan məsələyə birlikdə diqqət yetirək. Yeni Müsavat qəzetinin 7 Oktyabr, 2003-cü il 271 saylı nəşrində Azərbaycan rayonlarında əsas vəzifələrin qiymətlərinin cədvəli verilmişdir. Cədvəli olduğu kimi nəzərinizə çatdırırıq:

| Azərbaycan rayonlarında əsas vəzifələrin qiymətləri | |
|---|---|
| Vəzifənin adı | Vəzifənin qiyməti (ABŞ dolları ilə) |
| İcra başçısı | 100 min - 1 milyon |
| Bələdiyyə başqanı | 1 min - 15 min |
| Vergi rəisi | 50 min - 500 min |
| Maliyyə İdarəsinin müdiri | 20 min - 300 min |
| Bank müdiri | 10 min - 200 min |
| Poçt müdiri | 10 min - 200 min |

| | |
|---|---|
| Polis rəisi | 50 min – 500 min |
| Prokuror | 30 mindən başlayır |
| Məhkəmə sədri | 40 mindən başlayır |
| Təhsil şöbəsinin müdiri | 20 min – 200 min |
| Qaz İdarəsinin rəisi | 5 min – 50 min |
| MİS (JEK) rəisi | 1 mindən başlayır |
| Orta məktəb müəllimi | 0.5 min – 1.5 min |
| Sobes müdiri | 40 mindən başlayır |

İndi təsəvvür edək ki, hər hansı bir "X" adlı rayonun icra başçısı vəzifəsi boşdur və bu vəzifənin qiyməti 300 min ABŞ dolları olaraq təyin edilib. Bu halda vəzifəyə təyin edilmə ehtimalı olan namizdlər arasında yarış başlanır və istənilən məbləği vermək iqtidarında olan kəs vəzifəyə təyin ediləcək. Tutaq ki, bizim "Y" adlı xəyali qəhrəmanımız bu vəzifə üçün istənilən məbləği ödəməyi öhdəsinə götürüb. Bu məbləğin bir qismini artıq daha əvvəl işlədiyi yerdə "yığan" cənab "Y" geri qalan məbləği ödəmək üçün qohumlarına, dost-tanışlarına üz tutur və onlardan borc pul istəyir. Başqa bir variantda isə o, bu məbləğin geri qalan hissəsini ödəmək üçün daşınmaz əmlakını və ya digər əşyalarını satmağa məcbur olur. İndi təsəvvür edək ki, bizim qəhrəmanımız bu vəzifəyə təyin edilib, belə olan halda o nə etməlidir. Əlbəttə ki, borclarını pdəmək və əmlakını geri qaytarmaq haqqında fikirləşməlidir. Bundan əlavə hər ay mərkəzdən onu təftiş edən müxtəlif kuratorların da haqqı vaxtlı-vaxtında çatdırılmalıdır. Əgər buraya hər ay yenə mərkəzdən gələn yüksək vəzifəli müxtəlif qonaqları da əlavə etsək onda yəqin hər şey aydın olar. Bütün bunlardan əlavə isə ailəni dolandırmaq və övladların gələcəyi haqqında da düşünmək lazımdır.

Bütün bunları düşündükdən sonra gəlin görək vəzifəyə yenicə təyin edilmiş "Y" adlı qəhrəmanımız öz vəzifəsinin icrasına necə başlayır? – Tabeliyində olan işçiləri

çağırır və yuxarıda qeyd etdiyimiz borc-xərcləri ödəmək üçün hər birinə aylıq plan qoyur. Tutaq ki, bu tabelikdə olanların sayı 50 nəfərdir və onların da hər birinin tabeliyində 20 nəfər işçi var. Bu 50 nəfər də eyni iclası öz idarəsində keçirir və özlərinə də "çörək pulu" saxlamaq üçün onlara tapşırılan planın miqdarını bir az da qaldıraraq həmin 20 nəfərin diqqətinə çatdırır. Həmin 20 nəfər də öz tabeliyində olanlara tapşırıq verir və axırıncılar da düşür vətəndaşların canına. Beləcə də başlayır yuxarıdan hazırlanan zəncirvari korrupsiya sistemin işə düşməsi. Yəni göründüyü kimi hökümət qurumlarında korrupsiyanın geniş şəkildə yaılması təkcə sosial vəziyyətdən deyil, həm də yuxarı dairələrin fəaliyyətindən də asılıdır. Atalar əbəs yerə deməyiblər balıq başdan qoxar...

Şəfafflıq Azərbaycan

e-mail : transpaz@azeronline.com
url: www.transparency-az.org